

# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş strategiya, düzgün taktika



## SİYASƏTİN GÜCÜ, GÜCƏ SÖYKƏNƏN SİYASƏT

Bəşəriyyət ibtidai dövründən qurtulub kamala dolandan sonra siyasətlə güc qoşa addımlayır.

Hətta "siyasət" sözü olmadan, diplomatiya xüsusi peşəyə və sahəyə çevrilməzdən qabaq da siyasət mövcud olub.

Başqa adla, başqa formada.

**Çünki insanlar əksər hallarda bir-birlərinə qılınc çəkməzdən, zor tətbiq etməzdən əvvəl danışmağa, razılığa gəlməyə çalışıblar.**

*Ola bilsin ki, bu danışıqlar təzyiq, hədə formasında, bəlkə də aldatma, çəkindirmə şəklində baş verib.*

**Hədəf isə qan tökmədən, müharibə apararaq qırğına yol vermədən məqsədə çatmaq, istədiyinə dinc vasitələrlə yetişmək olub.**

- Əsrlərdir ki, insanlar dərk ediblər ki, sözlə, danışıqlar yolu ilə nəyəsə nail olmaq mümkündür!
- Əsrlərdir ki, insanlar dərk ediblər ki, sözün arxasında güc dayananda o, daha təsirli və inandırıcı olur!
- Əsrlərdir ki, insanlar dərk ediblər ki, sözün və gücün birliyi səmərəli və uğurlu nəticəyə daha tez çatdırır!

**Bu şərtlə ki, hər ikisi müdrik, uzaqgörən, möhkəm iradəli və qətiyyətli insan əlində olsun!**

❖ ❖ ❖

*Siyasətdə, dövlətə rəhbərlikdə şəxsiyyət amili mühüm rol oynayır.*

*Bu, müxtəlif dövrlərdə, müxtəlif dövlətlərin simasında dəfələrlə sınaqdan çıxmış gerçəklikdir.*

Azərbaycan xalqı isə buna şəxsi təcrübəsi, başına gələn və gətirilən bəlalar əsasında əmin oldu.

**Əgər qırmızı imperiya süquta uğrayan zaman "Qarabağ problemi" meydana atılanda və alovlandırılanda Azərbaycana Heydər Əliyev kimi siyasət nəhəngi rəhbərlik etsəydi, nə başımıza bu müsibətlər gələr, nə torpaqlarımız işğala məruz qalar, nə də 30 illik vətən həsrəti ilə bu qədər zillət çəkərdik.**

*"Qarabağ problemi" Kreml tərəfindən Ermənistana kömək məqsədilə yaradılmışdı.*

Onun yenidən meydana atılması SSRİ-nin birinci və sonuncu prezidenti, əli Azərbaycan xalqının qanına bulaşmış Qorbaçovun razılığı və dəstəyi əsasında baş tutmuşdu.

Ə.Vəzirov kimi Moskvaya qul sədaqəti göstərən, xalqın ən ağır günündə hərbi təyyarəyə minərək ağalarının yanına qaçan dövlət başçısı bu fəlakətin qarşısını ala bilərdimi?

Heç zaman!

Yaxud SSRİ-nin dağıldığı, insanların "partbilet"lərini kütləvi surətdə tulladıqları bir vaxtda qırmızı imperiyanın qorunub saxlanması üçün respublika ərazisində mərkəzin tapşırığı əsasında referendum keçirən A.Mütəllibov xalqı səfərbər edərək torpaqları işğaldan qoruya bilərdimi?

Heç zaman!

Çünki Azərbaycan xalqı belə mövqe sahibini dəstəkləməzdi!

Yaxud guya "xalqın dəstəyi", əslində isə, parlament çevrilişi yolu ilə iqtidara gələn AXC-Müsavat cütlüyü küçələrdən yığdığı və dərhal da əlinə avtomat verərək əsgər paltarı geyindirdiyi gənclərlə Qarabağın müdafiəsini təmin edə bilərdimi?

Mümkün olan iş deyildi!

Xüsusən də ölkənin prezidenti Ə.Elçibəy Surət Hüseynovun dövlət çevrilişinə cəhdi zamanı ordunu və dövləti başlı-başına buraxaraq Kələkiyə qaçırsa, o zaman belə dövlət düşmən qarşısında tab gətirə bilərdimi?

Əsla!

**Ulu Öndər Heydər Əliyev 1994-cü ilin oktyabr və 1995-ci ilin martında baş verən dövlət çevrilişinə cəhdlər zamanı əsl rəhbərin necə hərəkət etməli olduğunu şəxsi nümunəsi ilə ortaya qoydu!**

Meydanlara axışan xalq sevimli rəhbərini dəstəkləməklə qardaş qanı axıdılmasına yol vermədi.

*2003-cü ilin noyabrında cənab İlham Əliyev birinci dəfə Prezident seçiləndə xaricdən maliyyələşdirilən "5-ci kolon" üzvləri meydana girdilər, "cəbhəçi"lərin keçmiş ssenarisi ilə yenidən hakimiyyəti ələ keçirməyə cəhd göstərdilər.*

O zaman şəxsi maraqlarını ümummilli maraqlardan üstün tutan "bəy"lər və onların züytutanları bilmirdilər ki, İlham Əliyev möhkəm iradəli şəxsiyyət, qətiyyətli rəhbər olmaqla yanaşı, həm də "dəmir yumruq" sahibidir!

**Həmin "dəmir yumruq" 30 il ərzində işğal altında qalan torpaqları 44 gündə azad edərkən dövlət rəhbərliyində və siyasətdə şəxsiyyət amilinin əzəməti bir daha dərk olundu!**

❖ ❖ ❖

Adətən güclü dövlətlər zəif hesab etdikləri ölkələrlə oyun oynayırlar.

Bu oyunların məqsədi əsasən zəifi özünə tabe edib əlaltısına, forpostuna çevirməkdirsə, uzaq hədəfləri müxtəlif olur.

XIX əsrdə Rusiyanın İranla müharibədə qələbəsi nəticəsində çar Rusiyası Azərbaycan torpaqlarına sahib çıxandan sonra burada forpostu sayılan Ermənistan dövlətini yaratmağı hədəflədi.

*Dünyanın hər yerindən qovulan erməniləri Azərbaycandan qoparılan ərazilərdə yerləşdirməyə başladı.*

*Azərbaycan 1918-ci ildə ilk müstəqil dövlətini - Xalq Cümhuriyyətini yaradanda isə ondan "xoşluqla" alınan İrəvan şəhərini yeni yaradılan dövlətə paytaxt etdilər.*

**Rusiyanın ermənilərə canı yanmırdı, öz maraqları, öz planları vardı:**

- Cənubi Qafqazda Türkiyəyə qarşı plasdarm yaradaraq hərbi bazasını yerləşdirmək;
- Türk dövlətləri arasında əsrlər boyu mövcud olan quru yolla əlaqəni qırmaq və beləliklə, onların birliyinə xələl gətirmək.
- Əlaltı və alət millət sayılan ermənilər vasitəsilə bölgədə maraqlarını təmin etmək, istənilən məqamda isə sabitliyi pozmaq.

Buna da nail oldu.

Üstəlik, ictimai-iqtisadi formasiya dəyişəndən, çar Rusiyasını sovet Rusiyası əvəz edəndən sonra da bu siyasət yenə dövlət səviyyəsində davam etdirildi, 1948-1953-cü illərdə Stalinin qərarı ilə Ermənistan ərazisindəki azərbaycanlılar kütləvi şəkildə deportasiya olunaraq, yerlərinə xarici ölkələrdən ermənilər gətirilib məskunlaşdırıldı.

Azərbaycana qarşı belə xəyanətkar planlar təkcə "xristian təəssübkeşliyindən" qaynaqlanmırdı.

*Məqsəd həm də bu üsulla təsir və təzyiq göstərərək daim Azərbaycanı itaətdə saxlamaq, neft-qaz ehtiyatlarına və digər təbii sərvətlərinə sahib çıxaraq sərəncam vermək idi!*

**Sover dövründə repressiyalar, dövlət maşınından istifadə və digər zorakılıq vasitələri ilə bu niyyət baş tutsa da, yenidən dövlət müstəqilliyinə nail olan Azərbaycan kiminsə əlaltısına çevrilmək, təbii sərvətlərindən əl çəkmək niyyətində olmadığını qətiyyətlə bildirərək buna heç bir imkan vermədi!**

**Xüsusən tarixi şəxsiyyətlərə çevrilən Ulu Öndər Heydər Əliyevin və Müzəffər Ali Baş Komandan İlham Əliyevin ölkəyə rəhbərlikləri dövründə!**

❖ ❖ ❖

Qurtuluş missiyası baş tutandan, Ulu Öndər Heydər Əliyev ölkəyə ikinci dəfə rəhbərliyə başlayandan sonra Azərbaycan bir dövlət kimi formalaşmağa, güclənməyə başladı.

**Ulu Öndər Heydər Əliyev əbədiyyətə qovuşduqdan sonra onun müəyyən etdiyi siyasi kursu uğurla davam etdirən cənab İlham Əliyev bu prosesi daha da gücləndirdi, Azərbaycanı davamlı və sürətli inkişaf yoluna çıxararaq, yeni iqtisadi inkişaf modeli yaratdı.**

Dövlətin yüksəlişinin və möhkəmlənməsinin ilkin şərti şəxsiyyət amili ilə bağlı olsa da, növbəti mərhələdə uzaqgörənlik, milli maraqlara sədaqət, xalqın qüvvəsinin və dövlətin imkanlarının səfərbərliyə alınaraq düzgün və müdrikliklə, məqsədyönlü şəkildə istiqamətləndirilməsi mühüm əhəmiyyət kəsb etdi.

❖ ❖ ❖

**Biz hamımız Prezident İlham Əliyevin Ulu Öndər Heydər Əliyev müdrikliyindən güc alan, milli maraqlara əsaslanan siyasətini necə real gücə çevirməsinin şahidləriyik!**

*Bu siyasət üç istiqamətdə daim aydın görünüb:*

- Dövlətin siyasi nüfuzunun və iqtisadi qüdrətinin artırılması;
- Xalqın sosial rifahı və həyat şəraitinin yüksəldilməsi;
- Güclü ordu yaradılaraq torpaqların işğaldan azad edilməsi.

*Hər üç istiqamətdə gərgin və səmərəli iş aparılıb, çoxsaylı layihə reallaşdırılıb, yaxın və uzaq hədəflər məharətlə əlaqələndirilib:*

- Kimlərinsə istəyinin əksinə və üstəlik, maliyyə mənbələrinin olmamasına baxmayaraq, Azərbaycanın transmilli layihələri uğurla gerçəkləşdirməsi ölkəmizə iqtisadi dividendlər gətirməklə yanaşı, beynəlxalq siyasi nüfuzunu da əhəmiyyətli dərəcədə artırdı.

*Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərindən sonra Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsi, "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin işə salınması, dünya okeanına birbaşa çıxışı olmayan Azərbaycanın beynəlxalq logistika mərkəzinə çevrilməsi ölkəmizin gərəklilik göstəricisi olaraq ona xeyli tərəfdaş və dostlar da qazandırıb.*

Vədəsində genişləndirilərək və uzadılaraq Avropanın mavi yanacaqla təminində mühüm qollardan birinə çevrilən "Cənub qaz dəhlizi" Rusiyaya sanksiyaların tətbiq edildiyi bir vaxtda Avropanın karına gəldi.

Bu gün Azərbaycan on iki dövlətə təbii qaz ixrac edir.

Orta dəhliz həm də türk dövlətlərini bir-birinə daha da yaxınlaşdıran dəyərə, Mərkəzi Asiya ölkələri ilə Avropanı birləşdirən nəqliyyat kəmərinə çevrilib.

**Cənab İlham Əliyev "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun rifahı dayanır" vədinə daim şərəflə əməl edib:**

- Onun Azərbaycana rəhbərliyi dövründə regionların sosial-iqtisadi inkişafına dair dörd dövlət proqramı hazırlanaraq uğurla reallaşdırıldı.
- İşğal dövründə 116 yaşayış kompleksi salınaraq oraya 300 mindən çox məcburi köçkün köçürülməklə həyat şəraitləri xeyli yaxşılaşdırıldı.
- Regionlara fasiləsiz elektrik enerjisi verilişi təmin olundu, ölkə üzrə qazlaşdırma 95 faizi ötdü.
- Yol infrastrukturu təzələndi, yeni yollar çəkildi, körpülər və tunellər tikildi, kəndarası yollara asfalt döşəndi.
- Ölkədə sahibkarlığın inkişafına münbit şərait yaradıldı.
- Yoxsulluq 5 faizə endirildi.
- Xalqın rifahının yüksəldilməsinə xidmət edən dörd sosial paket hazırlanaraq gerçəkləşdirildi və s.

*Həyata keçirilən çoxsaylı layihə, atılan uğurlu addımlar sayəsində tarixinin ən qüdrətli Azərbaycanı yaradıldı!*

❖ ❖ ❖

ATƏT-in Minsk qrupunun ermənipərəst mövqe tutması, sülh danışıqları imitasiyası yaratması, beləliklə, Ermənistanın və onun havadarlarının Azərbaycanı işğalla barışmağa cəhd etmələri aydın görünürdü.

**İlham Əliyev bütün bu prosesləri müşahidə edərək incəliyinə qədər bilsə də, yenə sülh danışıqlarını davam etdirir, eyni zamanda Azərbaycanın öz prinsipial mövqeyindən bir addım da geri durmayacağını açıq şəkildə söyləyirdi:**

- Biz bir qarış torpağımızı belə düşmənə güzəşt etməyəcəyik!
- Biz öz torpaqlarımızda ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəyik!
- Lazım gəlsə, münaqişəni hərbi yolla həll edəcəyik!

Sözünün sahibi olan cənab İlham Əliyev yeni ordu quruculuğuna böyük diqqət yetirdi.

**Hazırlıq sülh danışıqlarına fasilə vermədən, son dərəcə məxfi, hərtərəfli, bütün imkanları səfərbər etməklə aparılırdı.**

*Tək bircə dəfə - 2016-cı ilin dördgünlük Aprel döyüşlərində Azərbaycanın yeni ordusunun necə olacağı aşkara çıxdı!*

Lakin I Qarabağ müharibəsinin nəticələrindən və havadarlarının hərtərəfli köməyindən eyforiyaya qapılan Ermənistan bu "gizli" hazırlığın "açıq" nəticəsindən dərs almadı!

Əksinə, "yeni müharibə yeni ərazilərin işğalı olacaqdır" hədəsini səsləndirməklə "hədə taktikası"ndan əl çəkmədiyini nümayiş etdirirdi.

**Azərbaycan isə sülh siyasətini hərbi vasitələrlə gücləndirməkdə davam edirdi:**

- Hər il dövlət büdcəsindən orduya Ermənistanın dövlət büdcəsindən çox həcmdə vəsait ayrılırdı.
- Ordu ən yeni texnologiyalar əsasında hazırlanan silah və sursatlarla təmin edilirdi.
- Gələcəkdə hərbi əməliyyatların keçirilməsi şəraitinə uyğun ərazilərdə dayanmadan, ilin bütün fəsillərində təlimlər keçirilir, əsgər və zabitlərin hazırlıq səviyyəsi daim yüksəldilirdi.
- Dünyanın tanınmış hərbi məktəblərində ordumuz üçün zabit kadrları hazırlanırdı.
- Xüsusi təyinatlı qüvvələr təşkil olunur, daim onların peşəkarlıq səviyyələri yüksəldilirdi.
- Ordumuz üçün yeni olan, türk qardaşlarımızın təcrübəsindən istifadə əsasında Komando qüvvələri hazırlanırdı.

**Ordunun döyüş qabiliyyətinin yüksəldilməsi, dövlətin iqtisadi qüdrətinin artırılması dövlət başçısı cənab İlham Əliyevi sülh danışıqlarında daha dönməz və inamlı edirdi!**

*Artıq Ermənistanın sülh yolu ilə torpaqları işğaldan azad etməyəcəyi, yaxud qəbuledilməz şərtlərindən əl çəkməyəcəyi də bəlli idi.*

❖ ❖ ❖

**Siyasətdə zərgər dəqiqliyi - bu ifadəni sözün tam mənasında cənab İlham Əliyevin siyasi fəaliyyətinə də aid etmək olar!**

Ermənistanın özü və müdafiəçiləri gerçəklikdə dərk etməsələr də, artıq reallıqda iki düşmən dövlət arasındakı qüvvələr nisbəti əsaslı şəkildə dəyişmişdi.

*Azərbaycanın beynəlxalq nüfuzu xeyli yüksəlmiş, dünya birliyində özünə layiqli yer tutmuş, Cənubi Qafqazın lider dövlətinə və söz sahibinə çevrilmiş, bütün parametrlər üzrə Ermənistanı qat-qat üstələmişdi.*

Daha bir mühüm dəyişiklik də baş vermişdi:

Ermənistan rəhbərliyinə siyasətdə və dövlət idarəçiliyində diletant sayılan, bilavasitə meydandan, kütlə arasından "Soros uşağı" N.Paşinyan gəlmişdi.

Ermənilərin yeni rəhbərini Azərbaycan Prezidenti - dünyanın tanınmış ali təhsil ocaqlarından biri sayılan və peşəkar diplomatlar hazırlayan MDBMİ-nin qırmızı diplomla məzunu və həmin təhsil ocağının müəllimi, Heydər Əliyev məktəbinin "əyani şöbəsi"nin tələbəsi olmuş cənab İlham Əliyevlə müqayisə etmək belə günah sayılardı...

Lakin Paşinyan özü "öz bacarıqları" haqqında tamamilə başqa düşüncədə idi.

Yalan danışmaq, bir-birinə zidd bəyanatlar vermək, söz verib sonra arxasından qaçmaq, siyasət meydanında "erməni bicliyini" alətə çevirmək, ağlına və ağzına gələni məsuliyyətsizcəsinə bəyan etmək - bu idi onun fəaliyyət prinsipi.

Xankəndidə keçirilən tədbirdə sərxoş vəziyyətə düşərək öz mövqe və qənaətlərini açıq şəkildə dilə gətirərək "Qarabağ Ermənistandır və nöqtə" deməsi ilə, əslində, sülh danışıqlarına nöqtə qoymuş oldu.

**Lakin Azərbaycan Prezidenti İlham Əliyev müdrik və uzaqgörən siyasətçi kimi tələsmədi.**

*Əvvəlcə Soçidə keçirilən Beynəlxalq Diskussiya Klubunda Ermənistanın baş nazirinin ağzından vuraraq, "Qarabağ Azərbaycandır və nida" söylədi!*

*Sonra Münhen Beynəlxalq Təhlükəsizlik Konfransında polemikaya girərək rəqibini gülünc vəziyyətə saldı.*

Ən nəhayət, Ermənistanın həddini aşaraq Azərbaycanı neft boru kəmərlərini vuracağı ilə hədələməsinə və Tovuz bölgəsində hücum-təxribat əməllərinə cavab olaraq "Hücum!" əmrini verdi.

❖ ❖ ❖

**30 il ərazimizin 20 faizini işğalda saxlayan düşməni 44 gündə diz çökdürən, Ermənistan ordusunu qorxaqlar və fərarilər yığnağına çevirən Müzəffər Ali Baş Komandan İlham Əliyev yeni taktika və strategiya əsasında möhtəşəm qələbə qazansa da, yenə tələsmədi.**

Hərbi əməliyyatlar dövründə üç cəbhədə çarpışan İlham Əliyev həm də Azərbaycanın bütün sahələrdə güclü və yenilməz olduğunu dünyaya nümayiş etdirdi!

**Diplomatiya sahəsində: bütün telefon zənglərinə, xahiş, tələb, təhdid cəhdlərinə baxmayaraq, Azərbaycanı ədalətli mövqeyindən, milli maraqlarından bir addım belə geri çəkmədi!**

İnformasiya müharibəsində: 30-dan çox KİV-in, o cümlədən telekanalların və informasiya agentliklərinin bir sıra hallarda qərəzli və məkrli suallarını belə təmkinlə cavablandıraraq feyk xəbər və məlumatları təkzib etdi, düşmənin müharibə qanunlarını pozduğunu, cəbhə xəttindən yüz kilometrlərlə uzaqda yerləşən yaşayış məntəqələrini ballistik raketlərlə vurduğunu, mülki əhalini qətlə yetirdiyini faktlarla göstərərək ermənipərəst jurnalistlərin və media subyektlərinin kamera və mikrofonlarını düşmənin şər və böhtanlarının ifşası tribunasına çevirdi!

*Nəyi nə vaxt və necə etməyi hamıdan yaxşı bilən Müzəffər Ali Baş Komandan İlham Əliyev düşmənə kapitulyasiya aktı sayılan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatı imzalatdırdıqdan sonra tam qələbəmizi təmin edəcək digər addımlarını da ardıcıllıqla atdı:*

- 23 aprel 2023-cü ildə şər və xəyanət yoluna çevrilən Laçın dəhlizi bağlanaraq ərazi bütövlüyümüz bərpa edildi.
- 19-20 sentyabr 2023-cü ildə dövlət suverenliyimiz və konstitusiya əsasları təmin olundu.
- 12 iyun 2024-cü ildə isə daim ermənipərəst mövqedə dayanan Rusiya sülhməramlı kontingenti sülh şəraitində ölkə ərazisindən çıxarıldı.
- 15 oktyabr 2023-cü ildə Müzəffər Ali Baş Komandan İlham Əliyev separatçı və terrorçulardan azad edilmiş Xankəndidə Azərbaycanın dövlət bayrağını ucaltdı.
- 8 noyabr 2023-cü ildə isə 30 illik işğaldan sonra Xankəndidə Zəfər paradı keçirildi!

**Əslində, bu parad Azərbaycanın hərbi qüdrəti ilə yanaşı, iqtisadi gücünün, beynəlxalq nüfuzunun, müdrik daxili və xarici siyasətinin təntənəsinin də nümayişi idi.**

❖ ❖ ❖

Hər bir siyasətin gücü və uğuru onun doğurduğu, yaratdığı real nəticələrlə ölçülür.

**Real nəticələrin bir qismini göstərdik, bir neçəsini də qısa şəkildə xatırladırıq:**

- Azərbaycan gördüyü işlər və yaratdığı reallıqlar sayəsində Cənubi Qafqazda söz sahibinə çevrilmişdir və onun razılığı olmadan kimsə burada yeni layihə reallaşdıra bilməz.
- Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT TŞ-nin qeyri-daimi üzvü seçilərək bir müddət onun iclaslarına sədrlik etdi.
- Azərbaycan I Avropa Oyunlarını yüksək səviyyədə keçirərək ortaya ən yüksək standartlar qoydu.
- Azərbaycan IV İslam Həmrəyliyi Oyunlarını keçirməklə islam aləminə öz töhfəsini verdi.
- Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə bu təşkilata yeni nəfəs gətirdi, özünə çoxsaylı dost qazandı.
- Azərbaycan TDT-nin fəaliyyətinin canlanması, türkdilli dövlətlərin dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmlənməsi üçün səmərəli və faydalı işlər gördü.
- Azərbaycan yeni dünya düzənində özünə nüfuzlu mövqe tutaraq BRICS və D-8 təşkilatları ilə əlaqə və münasibətlərini sıxlaşdırdı.
- Azərbaycan dünyanın ən böyük tədbirini - COP29-u uğurla keçirərək iqlim dəyişmələrinin fəsadlarından bəşəriyyətin qorunmasına kömək edəcək töhfələrini verdi.

**Bütün bu uğur və nailiyyətlərin təşkilatçısı, yeni Azərbaycanın dünyada söz, mövqe və nüfuz sahibinə çevrilməsinin baş müəllifi isə Azərbaycan Prezidenti cənab İlham Əliyevdir!**

Bu gün Qarabağda və Şərqi Zəngəzurda analoqu olmayan quruculuq işləri gedir, Böyük qayıdış proqramı uğurla reallaşdırılır, İlham Əliyevin uzaqgörən siyasəti, qətiyyəti və möhkəm iradəsi sayəsində uzun sürən həsrətdən sonra məcburi köçkünlər doğma torpaqlara qayıdaraq, dövlətin yaratdığı rahat şərait sayəsində xoş və bəxtəvər günlərə qovuşurlar!

**Bəxtiyar SADIQOV**